# QARABAĞ İQTİSADİ RAYONUNUN MİNERAL-XAMMAL EHTİYATLARI

**Tahir Osmanlı, Mehriban Ağaməmmədova, Xalidə Əliyarova**

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı*
*tahir.osmanl@mail.ru, mehriban11041967@mail.ru, aliyarova1976@bk.ru*

Tezisdə Qarabağ iqtisadi rayonunun mineral ehtiyatlarının mövcud vəziyyəti araşdırılır. Bunun əsas səbəbi iqtisadiyyat, sənaye və ümumi daxili məhsulun (ÜDM) inkişafında mineral ehtiyatların mühüm rol oynamasıdır.

Qarabağ bölgəsi uzun illər Ermənistan Respublikası tərəfindən işğal olunduğundan, 1987-ci ildən bəri həmin bölgələrdə heç bir geoloji axtarış və tədqiqat işləri aparılmamış və ərazilərin müfəssəl tədqiq edilməməsi səbəbindən həmin ərazilərin mineral xammal ehtiyatları haqqında dəqiq məlumatlar əldə etmək mümkün olmamışdır. Bunun üçün ciddi araşdırma tələb olunur. Həmin ərazilərdə faydalı qazıntı yataqlarının sayını və miqdarını müəyyən etmək üçün onların hər birinin diqqətlə öyrənilməsi tələb olunur. Həmçinin həmin bölgələrdə yeni axtarış-kəşfiyyat işlərinin aparılması və yeni faydalı qazıntı yataqlarının kəşfi ölkəmizdə sənayenin inkişafına, yeni iş yerlərinin açılmasına və gəlirin əldə edilməsinə öz töhfəsini verəcək.

Məlumatlar əsasən müxtəlif araşdırmalardan əldə edilib. Araşdırmalar nəticəsində həmin ərazilərdə yerləşən sənaye əhəmiyyətli faydalı qazıntı yataqlarının mövcud vəziyyəti və işlənməsi perspektivləri nəzərdən keçirilir. Burada faydalı qazıntı yataqları haqqında məlumatlar ümumiləşdirilmişdir ki, bu da regionda müəyyən növ yataqların öyrənilməsi üçün məlumat bazası ola bilər. Əsasən Mis, qızıl, qurğuşun-sink, civə, qiymətli daşlar, tikinti materialları və s. yataqları haqqında ətraflı məlumat verilmişdir.

Hazırda Azərbaycanda filiz və qeyri-metal faydalı qazıntıların işlənməsi və emalı sahəsində elmi-texniki tərəqqinin nailiyyətləri Kiçik Qafqazın, o cümlədən Qarabağın mineral ehtiyatlarının qiymətləndirilməsinə və işlənməsinə yeni yanaşmaya imkan verir.

Azərbaycan ərazisinin geoloji cəhətdən öyrənilməsinə XX əsrin əvvəllərindən başlanmış və qısa müddət ərzində bir neçə sənaye əhəmiyyətli yataqlar, o cümlədən Daşkəsəndə kobalt, dəmir və mərmər,

Zəylikdə alunit, Paraqaçayda molibden, Filizçayda polimetallik, Gümüşlüdə qurğuşun, Naxçıvanda daşduz və s. yataqları aşkar edilərək istismara verilmişdir. Bu yataqlar uzun müddət istismar edilərək keçmiş SSRİ miqyasında və respublikamızda çox böyük əhəmiyyətə malik olublar. Sonralar müəyyən səbəblərdən bu yataqlardan bir qisminin fəaliyyətləri dayandırılıb.

Müasir dövrdə bütün sənaye sahələrinin artan tələblərini təmin etmək üçün Azərbaycanın dağ mədən sənayesi yüksək sürətlə inkişaf etdirilməlidir. Mədən sənayesini inkişaf etdirmək üçün Azərbaycanın sənaye əhəmiyyətli faydalı qazıntı yataqları böyük balans ehtiyatlarına malikdir. Hazırda regionların iqtisadi potensialının yüksəldilməsi üçün bağlanmış mədənlərin yenidən fəaliyyətə başlamaları, yeni yataqların istismara hazırlanması regionların bir cox problemini həll etmiş olar.

Azərbaycanın ərazisinin kiçik olmasına baxmayaraq, kifayət qədər əhəmiyyətli mineral ehtiyat bazasına malikdir. Mineral ehtiyat bazası dünyada faydalı qazıntıların kəşfiyyatını və işlənməsini optimallaşdırmaq və ehtiyatların təhlükəsizliyini təmin etmək üçün strateji əsas sahədir.

Bir çox mineral xammal növləri üzrə kəşf edilmiş ehtiyatlar təkcə xalq təsərrüfatının daxili tələbatını ödəmək iqtidarında deyil, həm də başqa ölkələrə ixrac oluna bilər. Yanacaq-energetika xammalının - neft və qazın istehsalı sürətlə inkişaf edir, bu sahənin yüksək səviyyədə olmasını təmin etmək üçün kəşf edilmiş ehtiyatların böyük artımı və yeni yataqların kəşfi tələb olunur. Qara metallurgiya üçün xəlitəli metalların və bütün qeyri-metal xammal kompleksinin rolu bir çox cəhətdən artmış, əlvan metalların, nadir və mikroelementlərin mineral-xammal bazasının inkişafı böyük əhəmiyyət kəsb edir.

Qarabag iqtisadi rayonunda zəngin faydalı qazıntı yataqlarının istismara verilməsi həmin bölgənin yenidən bərpa olunmasını təmin etməklə yanaşı dövlətin iqtisadiyyatının xeyli yaxşılaşdırılmasına imkan yaradacaq.

Qarabağ iqtisadi rayonunun sənaye potensialı hesabına respublikamız mineral ehtiyatların ixracı potensialını xeyli artıra bilər. Xüsusilə, qiymətli metallar və tikinti materialları Azərbaycan iqtisadiyyatında aparıcı rol oynadığından, onların ixracını artıracaq. Onların fəaliyyəti ölkədə mədənçıxarma sənayesinin inkişafına əhəmiyyətli töhfə verə bilər və onlardan əldə olunan mənfəət qeyri-neft sektorunun gəlirləri ilə bağlı olacaqdır.